MahadSunnah

هيثم سرحان

هذا هو الحجاب

Bax budur Hicab

Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri

Azərbaycan dili

اللغة الأذرية

Tərcümə edən: İlqar Eyvazoğlu

ALSARHAAN.COM

MAHADSUNNAH.COM

Qadınları zərərlərdən, kişiləri fitnədən, cəmiyyəti rəzillik və şəhvət uçurumuna düşməkdən qoruyan HİCAB.

Allah hicabı müsəlman qadına fərz buyurdu və ona əmr etdi ki, naməhrəm qohum olsa belə, hər bir kişinin yanında ona əməl etsin.

Qadının hicabı bütün bədənini örtən şeydir. Bu da aşağıdakı şərtlərə uyğun olmalıdır:

- Parça sıx olmalı və altında nə olduğu görünməməlidir.
- Boş (enli) olmalı altında olanları biruzə etməməlidir.
- Özü-özlüyündə bəzəkli olmamalıdır .
- Ətirli olmamalıdır.
- Kişilərin libasına bənzəməməlidir.
- Kafir qadınların libasına bənzəməməlidir.
- Həmyaşıdlarından seçilən şöhrət paltarı olmamalıdır.

Bunlardan başqa hər şey Allahın qadağan etdiyi bər-bəzəyini nümayiş etməyə daxildir.

Uca Allah buyurub:

قال تعالى: ﴿وَقَرۡنَ فِي بُيُوتِكُنَّ وَلَا تَبَرَّجۡنَ تَبَرُّجَ ٱلۡجَٰهِلِيَّةِ ٱلۡأُولَىٰ﴾ [الأَحۡزَاب : ٣٣]

“Evlərinizdə qərar tutun! İlk cahiliyyə dövründə olduğu kimi açıq-saçıq gəzməyin”.[1]

Müsəlman qadın Allahın razılığını və cənnətini qazanmaq və Peyğəmbərin ﷺ kəlamında olan cəzadan xilas olmaq üçün Uca Allahın və Onun rəsulunun ﷺ əmrinə sadiq qalır.

Peyğəmbər ﷺ buyurub:

“Cəhənnəm əhlindən iki sinif insan vardır ki, mən onları hələ görməmişəm. Əllərində inək quyruğu kimi qamçılar tutan və onlarla insanları vuran bir qövm və geyinmiş, amma çılpaq olan, kişilərə diqqət yetirən və kişilərin diqqətini öz üzərinə çəkən və başlarını dəvənin boynuna oxşadan qadınlar. Onlar cənnətə daxil olmayacaqlar. Cənnətin iyin belə hiss etməyəcəklər. Halbuki onun iyi çox uzaq məsafədən duyulur.”[2]

[1] əl-Əhzab surəsi, 33-cü ayə
[2] Muslim 1228